

**ƏLİ HƏSƏNOV,**
Azərbaycan Respublikası
Baş nazirinin müavini

## QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN SOSİAL TƏMİNATI HAQQINDA

XX əsrdə Azərbaycan tarixinin ən faciəli səhifələri qaçqınlıq və məcburi köçkünlüklə bağlıdır. Azərbaycanın geostrateji mövqeyi, zəngin təbii sərvətləri regionda maraqları olan qüvvələri azərbaycanlıların öz tarixi torpaqlarından zorla köçürülməsinə sövq etmiş, ermənilərin daha çox torpaq əldə etmək iddiası XX əsrin müxtəlif vaxtlarında- 1905, 1918-20, 1948-50 və 1988-ci illərdə azərbaycanlıların müəyyən ərazilərdən zorla köçürülməsilə nəticələnmişdir.

Ermənistanın 1988-1989-cu illərdə planlı şəkildə həyata keçirdiyi son etnik təmizləmə siyasəti nəticəsində tarixən onun ərazisində yaşamış 250 min nəfər azərbaycanlı son nəfərədək öz doğma yurdlarından zorla qovulmuş və Azərbaycana pənah gətirmişlər. Eyni zamanda 1990-cı ildə Orta Asiyadan didərgin salınmış 50 min nəfərədək məshəti türkü də Azərbaycanda sığınacaq tapmışdır.

1988-ci ildən başlayaraq Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın azərbaycanlılar yaşayan 126 yaşayış məntəqəsindən azərbaycanlıların zorla çıxarılması planı həyata keçirildi. Məhz bu dövrdə XX əsrin ən faciəli hadisələrindən biri törədildi -Dağlıq Qarabağda 6000 nəfər azərbaycanlının yaşadığı Xocalı şəhəri erməni silahlı qüvvələri tərəfindən sovet qoşunlarının köməyilə bir gecədə darmadağın edildi və 613 nəfər dinc əhali vəhşicəsinə, qəddarlıqla qətlə yetirildi, 150 nəfər itkin düşdü. Qanlı faciədə 1000 nəfər dinc sakin müxtəlif dərəcədə şikəst oldu, 1275 nəfər isə əsir götürüldü. Onlardan 700 nəfəri hələ də erməni əsirliyindədir.

Beləliklə, Ermənistan silahlı qüvvələlrinin 1988-ci ildən başlayaraq ölkəmizə hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi Dağlıq Qarabağın, eləcə də ona bitişik olan 7 rayonun ərazisi işğal olunmuş, Dağlıq Qarabağdan 60 min nəfər, digər ətraf rayonlardan isə 600 min nəfərdən çox həmvətənimiz öz daimi yaşayış yerindən məhrum olaraq məcburən köçkün düşmüş və respublikanın 62 şəhər və rayonunda, 1600 dən çox obyektdə müvəqqəti məskunlaşmışlar.

Bundan başqa respublikamızın Ermənistanla və ya Dağlıq Qarabağla həmsərhəd olan Naxçıvan Muxtar Respublikasının, Ağstafa, Qazax, Tovuz, Ağcabədi, Gədəbəy və Tərtər rayonlarının sərhədyanı yaşayış məntəqələrindən 100 min nəfərədək soydaşımız Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində öz daimi yaşayış yerini tərk etmək məcburiyyətində qalmışdır.



Bütün bunlar, ermənilərin 300 il çalışdığı, lakin həyata keçirə bilmədikləri, 1982-1992-ci illərdə Azərbaycanın Heydər Əliyevsiz dövründə baş vermişdir.

Bu təcavüzlər nəticəsində 20 min nəfər azərbaycanlı həlak olmuş, 100 min nəfər yaralanmış, 50 min nəfər müxtəlif dərəcəli xəsarət alaraq əlil olmuşdur.

Münaqişə dövründə 4965 nəfər azərbaycanlı itkin düşmüş, onlardan 1326 nəfəri əsirlikdən azad edilmiş, 783 nəfəri isə bu günədək Ermənistanda əsirlikdədir. Beynəlxalq Qızıl Xaç Komitəsinin məlumatına görə 246 nəfər əsirlikdə ölmüşdür.

Beləliklə, hazırda Azərbaycanda bir milyondan çox qaçqın və məcburi köçkün vardır.

Hərbi təcavüz respublikamızın 17 min kv.km. ən məhsuldar torpaqlarının işğalına, 900 şəhər və kəndin, 7 min sənaye və kənd təsərrüfatı obyektinin, 700 təhsil, 665 səhiyyə ocağının, 800 km. avtomobil yollarının, 160 körpünün, 23 min km. su və 15 min km. elektrik xətlərinin dağıdılmasına səbəb olmuş, mənəvi - psixoloji zərbə ilə bərabər Azərbaycan iqtisadiyyatına 25 milyard ABŞ dollarından çox həcmdə ziyan dəymişdir.

Artıq 10 ildir ki, məcburi köçkünlərin 230 min nəfəri yataqxanalarda, 41 min nəfərdən çoxu çadır düşərgələrində, 28 min nəfəri fin tipli yığma evlərdə, 58 min nəfəri ferma və yeraltı qazmalarda, 16 min nəfəri yol kənarlarında, 6 min nəfəri dəmir yolu üzərindəki yük vaqonlarında, qalanları isə ictimai binalarda, tikintisi yarımçıq qalmış obyektlərdə, sanatoriya, pansionat və s. kommunal şəraiti olmayan, sanitar normalara cavab verməyən yerlərdə çox ağır, olduqca dözülməz, acınacaqlı bir şəraitdə yaşayırlar.

XX əsrin sonlarında ikinci dəfə dövlət müstəqilliyi qazanan xalqımız çox ağır sınaqlara məruz qaldı. Hətta nəinki müstəqilliyimizin taleyi, dövlətitmizin mövcudluğu belə real təhlükə qarşısında idi. Bir tərəfdən zorla cəlb edildiyimiz dağıdıcı müharibə, digər tərəfdən isə ölkə daxilində baş alıb gedən hakimiyyət davası fəlakətli vəziyyət yaratmışdı. Xalqın arzu və tələbi ilə yenidən olkə rəhbərliyinə qayıdan zati-alilələri Heydər Əliyev xalqı fəlakətdən, dövləti məhvolmadan, ölkəni özbaşınalıq və qanunsuzluq girdabından, AXC-Müsavat cütlüyünün yaratdığı anarxiya burulğanından xilas etdi. Üstəlik, müstəqilliyimiz qorunub saxlanaraq əbədiliyə çevrildi. Doğma Azərbaycanın ümumbəşəri inkişaf yoluna qaytarılması üçün ardıcıl və qətiyyətli addımlar atıldı.

Möhtərəm Prezidentimiz cənab Heydər Əliyevin müdrik və uzaqgörən, qətiyyətli fəaliyyəti sayəsində Azərbaycanda yaradılan sabitlik dönməz və davamlı oldu, heç bir məkrli qüvvələr tərəfindən pozula bilmədi.

Müxalifət qüvvələri neçə illərdir çalışırlar ki, qaçqın və məcburi köçkünləri öz iyrənc siyasətlərinə qoşsunlar, lakin bacarmırlar. Əksinə, ağır şəraitdə yaşamaqlarına baxmayaraq, bu insanlar böyük dözüm və iradə nümayiş etdirirlər. Bu dözümün, iradənin mənbəyi dövlətimizin onlara göstərdiyi diqqət və qayğı, Azərbaycan prezidenti Heydər Əliyevin işğal olunmuş torpaqlarımızın sülh yolu ilə azad edilməsi üçün apardığı siyasətin tezliklə öz bəhrəsini verəcəyinə olan dərin ümid və inamdır.

Bütün bunların nəticəsi olaraq bu gün qaçqın və məcburi köçkünlər arasında qeyri-adi dərəcədə içtimai-siyasi sabitlik vardır.

BMT Təhlükəsizlik Şurası münaqişənin tezliklə, sülh yolu ilə həlli, işğal olunmuş ərazilərin azad edilməsi, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması haqqında 1993-1994-cü illərdə 822, 853, 874, 884 saylı qətnamələr qəbul etdi.

1994-cü ilin may ayında atəşkəs haqqında razılaşmanın əldə olunması, ATƏT-in 1994-cü il Budapeşt, 1996-cı il Lissabon və 1999-cu il İstanbul Sammitlərində münaqişənin dinc və siyasi yollarla həlli istiqamətində görülən tədbirlər, ABŞ Konqresinin Müstəqil Azərbaycana yardım göstərilməsini qadağan edən ədalətsiz 907-ci düzəlişin icrasının dayandırılması Azərbaycan xalqının müqəddaratını həll edən, dünənin, bu günün və sabahın məsuliyyətini öz üzərinə götürən cənab Heydər Əliyevin prinsipial mübarizəsinin nəticəsidir.Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarına təcavüzü nəticəsində doğma ocaqlarından didərgin salınmış soydaşlarımızın bütün qayğıları, problemləri Azərbaycan dövlətinin, ölkə prezidenti cənab Heydər Əliyevin gündəlik qayğısına çevrilmişdir.

Ölkə Prezidenti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsilə əlaqədar olaraq 1993-cü ildən bəri ATƏT rəhbərliyi, Minsk qrupunun təmsilçilərilə keçirilən 200-dən artıq, 80 ölkənin dövlət başçıları ilə 500-dən çox görüşlərdə, çoxsaylı beynəlxalq və yerli qurumların tədbirlərində mütləq bir hal kimi bu problemə toxunaraq onu ölkədə bir nömrəli problem adlandırmışdır.

Ölkəmizdə qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli ilə bağlı beynəlxalq normalara uyğun tam hüquqi baza yaradılmış, ölkə Prezidenti tərəfindən 25 Fərman və Sərəncam imzalanmış, Milli Məclis 13 Qanun, Nazirlər Kabineti isə 152 qərar və sərəncam qəbul etmişdir.

O cümlədən 1998-ci ildə Azərbaycan Respublikasının vətəndaşlığı haqqında, 1999-cu ildə isə Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında, Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında Qanunlar qəbul edilmişdir.

Xarici ölkələrdən olan, sığınacaq axtaran şəxslərin müvafiq Qanuna uyğun hüquqlarının tənzimlənməsi məqsədilə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı ilə birgə Qaçqın Statusunun Müəyyənləşdirilməsi Departamenti yaradılmışdır.

Beynəlxalq ekspertlərin rəyinə görə Azərbaycan bu sahədə beynəlxalq normalara uyğun yaradılmış hüquqi bazaya görə MDB və Avropa ölkələri arasında birinci yerdədir.

Həmin Qanunların həyata keçirilməsilə əlaqədar lazımi hüquqi aktlar, təlimatlar hazırlanmış və onların ardıcıl şəkildə icrası təmin edilir.

Ölkəmizdə olan qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin operativ həlli və vahid mərkəzdən idarə olunması məqsədilə 1998-ci ilin noyabrında Nazirlər Kabinetinin strukturunda Baş nazirin müavini- Dövlətaçqınkomun



sədri vəzifəsi təsis olunmuş, Nazirlər Kabineti aparatının strukturunda qaçqınların, məcburi köçkünlərin problemləri və miqrasiya şöbəsi yaradılmışdır.

1998-ci il iyun ayının 27-də cənab Heydər Əliyevin sədrliyi ilə keçirilmiş ümumrespublika müşavirəsinin yekunlarını nəzərə alaraq, qaçqınların və məcburi köçkünlərin mövcud vəziyyətini, təhsil, səhiyyə, işə cəlbolunma, mənzil-məişət, müavinət və digər problemlərin həllini yaxşılaşdırmaq, qaçqınların, məcburi köçkünlərin sosial müdafiəsini gücləndirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə hazırlanmış uzunmüddətli Dövlət Proqramı ölkə rəhbərinin Sərəncamı ilə təsdiq edilmişdir.

Dövlət Proqramının hazırlanması üçün yaradılmış müvafiq Komissiyanın 1998-ci il 3 iyul tarixli iclasının qərarına uyğun olaraq məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları şəhər və rayonlara 78 nazirlik, komitə, şirkət, konsern və digər mərkəzi təşkilatlar təhkim edilmişdir. 1998-2002-ci illər ərzində bu dövlət orqanları tərəfindən məcburi köçkünlərə 30 mlrd. manat həcmində ərzaq, maddi və s. yardım göstərilmişdir.

1999-cu il dekabrın 6-da ölkə Prezidentinin Fərmanı ilə Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu təşkil edilmiş, qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həlli, infrastrukturun yaxşılaşdırılması, yeni iş yerlərinin açılması məqsədilə Dünya Bankı tərəfindən ölkəmizə ayrılmış 10 mln. ABŞ dolları həcmində kredit hesabına həmin Fondun xəttilə müxtəlif layihələr həyata keçirilir.

Qaçqınların və məcburi köçkünlərin sosial müdafiə xərcləri il ərzində dövlətə 160 milyon ABŞ dollarına başa gəlir. Həmin vəsaitin yalnız 55 milyonu dövlət büdcəsində nəzərdə tutulmuş, qalanı isə beynəlxalq humanitar yardımlar və respublikanın nazirlik, komitə, şirkət və mərkəzi idarələr tərəfindən göstərilən yardımlar, habelə onlara edilən güzəşt və imtiyazlardır.

Müqayisə üçün: əgər 1993-cü ildə məcburi köçkünlərin aylıq yemək xərcləri üçün verilən müavinətin adambaşına miqdarı 500 manat idisə, bu rəqəm son 8 ildə 50 dəfə artırılaraq 25 min manata çatdırılmışdır. 1993-cü ildə büdcə xərcləri cəmisi 19 milyard manat müəyyənləşmişdisə, indi bu rəqəm 269 milyard manatdır.

Məcburi köçkünlərin müvəqqəti məskunlaşma yerləri üzrə təşkil edilmiş 90 min şagirdi olan və 12 min müəllimin çalışdığı 692 ümumtəhsil məktəbin, 4300 işçisi olan 169 səhiyyə və 1350 mədəniyyət müəssisəsinin normal fəaliyyətinin təmin olunması məqsədilə müntəzəm olaraq müvafiq tədbirlər görülür.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə yaradılmış Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası öz fəaliyyətini respublikamızdakı qaçqın və məcburi köçkünlərin sosial problemlərini vaxtaşırı olaraq ətraflı təhlil edərək daha çox ehtiyac duyulan, ciddi narahatlıq doğuran vacib məsələlərin aidiyyəti orqanlar və beynəlxalq humanitar təşkilatlar, donor ölkə və maliyyə qurumları ilə birlikdə araşdırılması, məsələnin həlli

yollarının müəyyən edilməsi və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi istiqamətində qurur.

Qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həllinə və onun dünya ictimaiyyətinin diqqətinə çatdırılmasına həsr olunmuş 5 may 1999-cu ildə Humanitar yardımdan inkişafa doğru: daha davamlı həll yollarının axtarılması, 18 may 2000-ci ildə cənab Prezidentin bilavasitə iştirakı ilə İnkişaf Problemləri və Strateji İstiqamətlər, 2001-ci ilin martın 12-15-də Danimarkanın Danimarka Qaçqınlar Şurası beynəlxalq humanitar təşkilatı tərəfindən Qafqazda münaqişələr və məcburi köçkünlər mövzusunda beynəlxalq konfranslar, həmin ilin oktyabr ayının 11-12-də isə beynəlxalq humanitar təşkilatların ilk Mikro-Maliyyə Konfransı, 2002-ci il iyunun 25-də Azərbaycanda beynəlxalq humanitar təşkilatların sərbəst fəaliyyəti üçün şərait yaradılması sahəsində görülmüş işlər və mövcud problemlər mövzusunda seminar-muşavirə, 2002-ci il oktyabrın 8-9-da İcma İnkişafı üzrə Milli Konfrans keçirilmiş, tədbir iştirakçılarına ölkədəki bir nömrəli problemin yaranma səbəbləri barədə konkret faktlara əsaslanan ətraflı məlumatlar verilmiş, humanitar sahədə qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.

Bununla yanaşı, bir sıra ölkələrdə və yeni müstəqil dövlətlərdə keçirilən qaçqınların və məcburi köçkünlərin, miqrasiya problemlərinə həsr olunmuş beynəlxalq konfranslarda ingilis, rus dillərində hazırlanmış sənədlər, kitabcalar və foto-albomlar yayılmaqla Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri, səbəbləri və onun nəticəsində respublikamızdakı qaçqınların və məcburi köçkünlərin ağır vəziyyəti, bəzi beynəlxalq humanitar təşkilatların humanitar yardım proqramlarını dayandırması ilə əlaqədar Azərbaycan dövlətinin narahatlığı, uzunmüddətli inkişaf proqramlarının humanitar yardım proqramları ilə paralel olaraq həyata keçirilməsinin zəruriliyi dünya ictimaiyyətinin diqqətinə çatdırılır.

1999-cu ildə ölkə Prezidenti cənab Heydər Əliyevin BMT-nin ümumdünya Ərzaq Proqramı təşkilatının baş qərargahına müraciətinə əsasən fəaliyyət müddəti müstəsna hal kimi 2005-ci ilə qədər uzadılmış həmin təşkilatın xəttilə indiyədək məcburi köçkünlərə və əhalinin aztəminatlı təbəqələrinə 60 milyon ABŞ dolları dəyərində ayrı-ayrı çeşiddə 90 min tona yaxın müxtəlif növ ərzaq paylanılmış, beynəlxalq humanitar təşkilatların xətti ilə indiyədək məcburi köçkünlər üçün 8000 sadə daş və çiy kərpicdən evlər tikilmiş, 160 min nəfər qaçqın və məcburi köçkün gəlirəldəetmə və icmanın inkişafı proqramlarına cəlb olunmuş, Füzuli və Ağdam rayonlarının işğaldan azad edilmiş ərazilərində 700 şəxsi ev təmir və ya bərpa edilmiş, 600 ictimai bina təmir olunmuş, 470 məktəb və səhiyyə obyektləri üçün əlavə otaqlar tikilmiş və lazımi avadanlıqlarla, tədris ləvazimatları ilə təchiz olunmuş və s. həlli vacib layihələr həyata keçirilmişdir.

Aparılan səmərəli işlərin nəticəsi olaraq, 1993-2002-ci illərdə ayrı-ayrı dövlətlər, maliyyə qurumları və beynəlxalq humanitar təşkilatlar tərəfindən 600 min nəfərdən çox daimi məskunlaşmamış qaçqın, məcburi köçkün və aztəminatlı



əhaliyə müxtəlif layihələr üzrə 560 mln. ABŞ dollarından çox humanitar yardım göstərilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin 1997-ci ildə İtaliyaya səfəri zamanı əldə olunmuş razılığa əsasən İtaliyanın "ENİ" Şirkəti tərəfindən Azərbaycanda yurdlarından didərgin düşmüş şəxslər və məcburi köçkünlər layihəsi çərçivəsində 2,2 mln. ABŞ dolları həcmində qrant şəklində ayrılmış vəsait hesabına 1999-cu ilin noyabr ayında Azərbaycan hökuməti, ACİP Azərbaycan Ortaq Şirkəti, İtaliyanın ENİ Şirkəti və BMT QAK arasında imzalanmış üçtərəfli müqaviləyə əsasən məcburi köçkünlər üçün Xanlar rayonunda 234 ailə üçün 253 ev və sosial obyektlər, Beyləqan rayonunda 110 ailə üçün 124 ev və sosial obyektlər, Ağcabədi rayonu ərazisində Laçın qış yataqlarında 35 obada 5600 nəfər üçün su xətləri çəkilmişdir.

2001-ci ilin iyun ayında Azərbaycan hökuməti ilə razılaşdırılmış və həmin il noyabrın 9-da Yaponiya hökuməti tərəfindən bəyənilmiş Yoxsulluğun Azaldılması üzrə Yaponiya Fondu hesabına maliyyələşdiriləcək "Mingəçevir şəhərində məskunlaşmış məcburi köçkünlərə yardım layihəsi üzrə 412 məcburi köçkün ailəsinin yeni tikiləcək yaşayış evlərinə köçürülməsi nəzərdə tutulur.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, son illər donor ölkə və beynəlxalq humanitar təşkilatlar qaçqınlara və məcburi köçkünlərə göstərilən ərzaq və qeyri-ərzaq yardımının həcmini kəskin şəkildə 4 dəfə azaltmışdır.

Qeyd etmək lazımdır ki, 2002-ci il oktyabrın 25-də ölkə Prezidentinin iştirakı ilə keçirilmiş təqdimat mərasimində təsdiq edilmiş Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramına, Dünya Bankının və digər sosioloji mərkəzlərin təhlilinə əsasən ölkədə yoxsulluğun ən yüksək həddi məhz məcburi köçkünlər arasında qeydə alınmışdır (72,5 faiz).

2001-ci ildə ərzaq yardımı beynəlxalq humanitar təşkilatlar tərəfindən dayandırılmış 214 min nəfər məcburi köçkünə, ölkənin iqtisadi vəziyyətindəki mövcud çətinliklərə baxmayaraq, respublika Prezidentinin 2001-ci il 15 avqust tarixli Məcburi köçkünlərin sosial təminatının yaxşılaşdırılması haqqında Sərəncamlarına əsasən Dövlət Neft Şirkəti tərəfindən ayrılmış vəsait hesabına məcburi köçkünlərə Dövlətqaçqınkom tərəfindən müəyyən edilmiş normada və müddətdə aylıq ərzaq paylanılmışdır.

Hazırda respublikanın 23 şəhər və rayonunda müvəqqəti məskunlaşmış 143 min nəfər məcburi köçkünə BMT-nin ümumdünya Ərzaq Proqramı beynəlxalq humanitar təşkilatı tərəfindən aylıq ərzaq yardımı paylanılır.

Daimi məskunlaşmamış qaçqınların və məcburi köçkünlərin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılmışdır.

Dövlət Neft Fondundan ilk dəfə olaraq vəsaitin qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün ayrılması ölkə Prezidentinin böyük uğurla həyata keçirdiyi təkrarsız neft strategiyasının gözəl bəhrəsinin nəticəsidir. Baxmayaraq ki, Azərbaycan 150 ildən çox müddətdir ki, neft ölkəsi hesab olunur, ancaq ötən dövr ərzində Azərbaycanın indiki qədər elmi cəhətdən

əsaslandırılmış və özünü doğrultmuş neft konsepsiyası, strategiyası olmamışdır. Digər tərəfdən isə, məhz ilk gəlir qaçqın və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəlmişdir.

Ölkə Prezidentinin 2001-ci il 22 avqust tarixli 562 nömrəli Erməni millətçilərinin apardığı etnik təmizləmə siyasəti nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında Fərmanına əsasən Dövlət Neft Fondundan ayrılmış 83 milyard manat həcmində vəsait hesabına daimi məskunlaşmamış qaçqınlar üçün Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində evlərin tikilməsi, eyni zamanda 1995-ci ildən Ermənistandan olan qaçqınlar üçün tikintisi yarımçıq qalmış evlərin inşasının başa çatdırılması ilə bağlı müvafiq tədbirlər həyata keçirilmişdir.

Ötən ildə Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində bütün kommunikasiyaları ilə birlikdə 364 ev, bir sıra sosial obyektlər inşa edilərək qaçqınların istifadəsinə verilmiş, hər bir ailəyə 0,12 ha həyətyanı, 1 ha əkin üçün torpaq sahəsi ayrılmış, bir baş inək verilmişdir. İslam İnkişaf Bankının köməyilə 330 şagird yerlik qəsəbə orta məktəbi inşa edilərək istifadəyə verilmiş, ABŞ-ın "Dünyaya Baxış" beynəlxalq humanitar təşkilatının xəttilə bu insanların gəlirəldəetmə sahələrinə cəlb edilmələri üçün kiçik kreditlərin verilməsinə başlanılmış, həmin təşkilatın xəttilə hər ailəyə 200 kq. toxum, 200 kq. gübrə, 240 min manat həcmində maddi yardım göstərilmişdir.

Ötən müddətdə qaçqınların və məcburi köçkünlərin problemlərinə həsr olunmuş 30-dan çox beynəlxalq və respublika səviyyəli tədbirdən əlavə, 2002-ci il sentyabrın 13-də Azərbaycan Respublikası Prezidenti cənab Heydər Əliyev qəsəbənin açılışında iştirak etmiş və geniş nitq söyləmişdir.

Eyni zamanda Fərmanın icrası ilə əlaqədar Naxçıvanda 48 mənzilli 4 mərtəbəli evin, 53 fərdi yaşayış evinin, Abşeron rayonunun Mehdiabad qəsəbəsində 108, Sabunçu rayonunun Ramana qəsəbəsində 160, Şəmkirdə 126, Yevlaxda 65 ailəlik yığcam qəsəbələrin salınması, Ağstafada 17, İsmayıllıda 45, Sumqayıtda 1, Oğuzda 3, Şəkidə 2 fərdi evlərin tikintisi sürətlə həyata keçirilir və bütün bu işlər cari ilin aprel ayınadək başa çatdırılmışdır.

Bundan əlavə, Fərmana əsasən 1995-ci ildən respublikanın 28 rayonunda tikintisi yarımçıq qalmış 322 evdə tikinti işləri sona yetmək üzrədir.

Həmçinin Ermənistandan qaçqın düşmüş, oradakı ev və mənzillərini Bakı şəhərindəki özbaşına tikilmiş evlərə dəyişərək daimi məskunlaşmış 793 nəfərdən ibarət 170 qaçqın ailəsinin yaşadığı evlərə qeydiyyata alınması, 24385 nəfərdən ibarət 3823 ailənin daimi məskunlaşdıqları evlər üçün qeydiyyat vəsiqəsinin verilməsi, 1988-1992-ci illərdə Ermənistandan çıxarılan, hazırda respublikamızın ərazisində daimi məskunlaşmış qaçqınların yaşadıqları tikililərin altında yerləşən və dövlət mülkiyyətində olan torpaq sahələrinin əvəzsiz olaraq onların mülkiyyətinə verilməsi təmin edilmişdir.

Respublika Prezidentinin 2001-ci il 7 sentyabr tarixli 577 nömrəli Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğalı nəticəsində Ağdam və Füzuli rayonlarından didərgin düşmüş və çadır düşərgələrində müvəqqəti yerləşdirilmiş məcburi köçkünlərin bir qisminin həmin rayonların ərazisində məskunlaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında Fərmanına əsasən Dövlət Neft Fondundan ayrılmış 84 milyard manat həcmində vəsaitlə məcburi köçkünlərin müvəqqəti yerləşdirilməsi məqsədilə Ağdam rayonunda 500 ailəlik 4 qəsəbənin (150 ailəlik 2, 100 ailəlik 2 qəsəbə), Füzuli rayonunda 800 ailəlik (hər birində 200 ailəlik) 4 qəsəbənin tikilməsi nəzərdə tutulmuşdur.

2002-ci ildə Ağdam rayonunun Quzanlı kəndində bütün kommunikasiyalarla birlikdə 100 ailəlik qəsəbənin tikintisi tamamlanmış, püşkatma yolu ilə sahiblər müəyyənləşdirilmiş və köcürülmə həyata keçirilmişdir. Rayonun Xındırıstan, Ayaq-Qərvənd, Ergi kəndlərində və Füzuli rayonunun Haramı ərazisində qəsəbələrin inşası başa çatdırılmış, Dövlət Komissiyası tərəfindən qəbul edilərək sakinlərin köçürülməsi tam başa çatdırılır.

Ölkə rəhbərinin 2002-ci il 13 may tarixli, 700 nömrəli Biləsuvar rayonu ərazisində yerləşən beş cadır düşərgəsində məskunlaşmış məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında Fərmanına əsasən Dövlət Neft Fondundan ayrılmış 192 milyard manat vəsait hesabına məcburi köçkünlər üçün 3719 fərdi yaşayış evindən ibarət 19 qəsəbənin salınması, o cümlədən Biləsuvar rayonundakı çadır düşərgələrinin ləğv edilməsi, burada müvəqqəti məskunlaşmış məcburi köçkünlərin Füzuli rayonunda tikiləcək 1211 ailəlik 6 yaşayış qəsəbəsinə və Biləsuvar rayonında salınacaq 2560 ailəlik 13 yaşayış qəsəbəsinə köçürülməsi planlaşdırılmışdır.

Məcburi köçkünlərə kənd təsərrüfatı işləri ilə məşğul olmaları üçün müəyyən edilmiş miqdarda əvəzsiz maliyyə yardımının ayrılması Nazirlər Kabinetinin 2002-ci il 19 noyabr tarixli, 182 nömrəli qərarı ilə tənzimlənmişdir. Ümumiyyətlə, bu 3 Fərmanla Dövlət Neft Fondundan ilk dəfə olaraq 359 milyard manat vəsaitin 6741 qaçqın və məcburi köçkün ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün ayrılması son dərəcədə çətin şəraitdə yaşayan bu insanlara dövlət başçısının müntəzəm qayğısının, diqqətinin bariz nümunəsidir.

Respublikanın 32 rayonunda 200-dək tikinti təşkilatı tərəfindən həyata keçirilən tikinti işlərinə ölkənin 54 şəhər və rayonundan inşaatçı, yerli əhali ilə yanaşı qaçqınlar və məcburi köçkünlər də cəlb olunmuş, onların aylıq əmək haqqı orta hesabla 500-600 min manat olmuşdur. Bu Fərmanların fərqli cəhətlərindən biri də ondan ibarətdir ki, bunlar qaçqın və məcburi köçkünlərin həyat, mənzil-məişət problemlərinin həlli ilə yanaşı, neçə minlərlə yeni iş yerinin açılmasına, çoxsaylı inşaat, nəqliyyat təşkilatlarının fəaliyyətinin bərpasına, tikinti materialları istehsalı müəssisələrinin işinin canlandırılmasına səbəb olmuşdur.

Dövlət büdcəsindən daimi məskunlaşmamış qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı 1999-2002-ci illər ərzində ayrılmış vəsaitin həcmi 648 183,9 mln. manat təşkil etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli, 613 nömrəli Fərmanına uyğun olaraq Nazirlər Kabinetinin 2002-ci il 22 yanvar tarixli 15

nömrəli Məskunlaşmamış qaçqın və məcburi köçkünlərə güzəştlərin müavinətlə əvəz olunması ilə əlaqədar onların ödənilməsi qaydasının tətbiq edilməsi barədə qərarına əsasən məskunlaşmamış qaçqın və məcburi köçkünlərin istifadə etdikləri kommunal və digər xidmət haqları mərkəzləşmiş qaydada birbaşa müvafiq xidmət təşkilatlarına vaxtlı-vaxtında ödənilir.

Nazirlər Kabinetinin müvafiq qərarlarına əsasən büdcədən maliyyələşdirilən müəssisələrdə, təşkilatlarda çalışmış, özlərindən asılı olmayan səbəblərə görə iş yerlərindən məhrum olmuş və işlə təmin olunmamış 12 min nəfər məcburi köçkünə orta aylıq əmək haqqı ödənilməsi davam etdirilir.

Nazirlər Kabinetinin 2000-ci il 6 noyabr tarixli 204 nömrəli Kənd təsərrüfatı ilə məşğul olmaq üçün məcburi köçkünlərə kreditlərin verilməsi Qaydalarının və şərtlərinin təsdiq edilməsi haqqında qərarına uyğun olaraq 2001-2002-ci illərdə büdcədən ayrılmış 2 milyard manat vəsait hesabına 1000 nəfərdən çox məcburi köçkünə kənd təsərrüfatı ilə məşğul olmaq üçün kredit verilmişdir.

Çadır düşərgələri, fin tipli quraşdırma evlərdən ibarət qəsəbələr, dəmir yolu üzərindəki yük vaqonları və s. sıx məskunlaşma yerlərində sosial infrastrukturun yaxşılaşdırılması məqsədilə təkcə ötən ildə 4,8 mlrd. manat vəsait hesabına lazımi elektrik, su təminatı avadanlığı, mal-material verilmiş, cari təmir işləri aparılmışdır. Məcburi köçkünlərin sağlamlığının qorunması məqsədilə Səhiyyə Nazirliyi, beynəlxalq humanitar təşkilatlar vasitəsilə onların xüsusilə sıx məskunlaşma yerlərində yaradılmış səhiyyə ocaqlarında, yaxud səyyar tibbi heyətlər vasitəsilə vaxtaşırı olaraq onların müayinəsi keçirilir, aşkar edilmiş xəstələrin müalicəsi təşkil olunur, pulsuz lazımi dərman vasitələri ilə təmin olunurlar.

Məcburi köçkünlərə müvəqqəti istifadə üçün dövlət və bələdiyyə ehtiyat fondlarından 60 min hektar torpaq sahəsi ayrılmış, 47 min məcburi köçkünün əhatə olunduğu 760 fermer təsərrüfatı yaradılmış, onların fərdi heyvandarlıq təsərrüfatında 700 min başdan çox iri və xırda buynuzlu mal-qara vardır.

Ölkə Prezidentinin tapşırıqlarına uyğun olaraq çadır düşərgələrində, dəmir yolu üzərindəki yük vaqonlarında, yeraltı qazmalarda, tikintisi yarımçıq qalmış binalarda və s. sıx yaşayış obyektlərində müvəqqəti məskunlaşmış məcburi köçkünlərin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, yeni iş yerlərinin yaradılması, təhsil, səhiyyə və s. layihələrin həyata keçirilməsi məqsədilə bundan sonra da müvafiq tədbirlər müntəzəm olaraq davam etdiriləcəkdir.

Onların problemlərinin həlli, həyat şəraitlərinin yaxşılaşdırılması sahəsində dövlətimiz, şəxsən möhtərəm prezidentimiz Heydər Əliyev tərəfindən müntəzəm və ardıcıl tədbirlər görülür. Ölkə Prezidenti dəfələrlə bəyan etmişdir ki, Azərbaycan münaqişəni sülh yolu ilə beynəlxalq prinsip və normalar əsasında nizamlamaq niyyətindədir. Bu məqsədlə Möhtərəm cənab Heydər Əliyev çoxsaylı danışıqlar aparmış, dünyanın aparıcı dövlətlərinin rəhbərləri, beynəlxalq qurumların başçıları ilə görüşmüş, münaqişə haqqında əsl həqiqətləri və Azərbaycanın prinsipial mövqeyini hamıya çatdırmış, bir qarış torpağımızın belə kimsəyə güzəştə gedilməyəcəyini bəyan etmişdir.



Azərbaycan gəncliyinin lideri, millət vəkili, ARDNŞ-nin birinci vitse prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevin də bu gün qaçqın və məcburi köçkünlərin problemlərinin həlli istiqamətində apardığı işlər müsbət qiymətləndirilməlidir.

Azərbaycan parlament nümayəndə heyətinin və şəxsən onun rəhbəri cənab İlham Əliyevin AŞPA-dakı çox uğurlu və səmərəli fəaliyyəti sayəsində Azərbaycan Respublikasının Avropa Şurasına daxil olmasından 4 ay sonra Qaçqınlar, Miqrasiya və Demoqrafiya Komitəsinin AŞ PA-nın əksər üzvlərinin iştirakı ilə Bakı şəhərində Cənubi Qafqazda qaçqınlar və məcburi köçkünlər mövzusunda səyyar seminarın keçirilməsi və onların məcburi köçkünlərin məskunlaşdıqları çadır düşərgələrinə səfərləri məhz İlham Əliyevin Avropa Şurasındakı gərgin əməyinin bəhrəsidir.

Ermənistanın işğalçı dövlət olması, Dağlıq Qarabağın ərazisində narkotik bitkilərin yetişdirilməsi, terrorçu qruplaşmalar hazırlanması üçün düşərgələr olması barədə də faktlar Avropa və dünya ictimaiyyətinə çatdırılmışdır.

Bu gün taleyinə didərginlik düşmüş qaçqın və məcburi köçkünlər hörmətli İlham müəllimə böyük ümid bəsləyir. Bu da təsadüfi deyildir ki, son illər millət vəkili kimi qaçqın və köçkünlər öz problemlərinin həlli üçün cənab İlham Əliyevə çoxsaylı müraciətlər edirlər.

Məhz cənab İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanda fəaliyyət göstərən Türkiyənin Cenay inşaat sənaye və ticarət şirkəti tərəfindən 100 ailəlik bütün infrastrukturları ilə birlikdə qəsəbə inşa edilməsi, məcburi köçkünlərin məskunlaşdıqları çadır düşərgələri üçün 7500 ədəd çadır örtük verilməsi nəzərdə tutulmuşdur.

Bunun üçün Saatlı rayonu ərazisində 32 hektar torpaq sahəsi ayrılmış, bütün texniki işlər başa çatdırılmışdır. İnşa ediləcək qəsəbəyə Saatlı rayonu ərazisində məskunlaşmış məcburi köçkün ailələri köçürüləcək, çadır örtüklər isə artıq daxil olub, paylanılır.

Qaradağ rayonu ərazisində Ümid qəsəbəsinin tikilməsi və məcburi köçkünlərin oraya köçürülməsi də bilavasitə İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə həyata keçirilmişdir.

Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyevin AŞ PA sədrinin müavini və büro üzvü seçilməsi qaçqın və məcburi köçkünlərin böyük sevincinə səbəb olmuşdur. Onlar bir daha əmindirlər ki, hörmətli İlham müəllim onların haqq səsini ona verilmiş yüksək səlahiyyətdən istifadə edərək Parlament Assambleyasının yüksək kürsüsündən bütün dünyanın tərəqqipərvər insanlarına çatdıracaqdır.

AŞ PA-da Azərbaycan nümayəndə heyətinin böyük uğuru, cənab İlham Əliyevin yüksək vəzifəyə seçilməsi, özünü müxalifət adlandıran qurumlar tərəfindən qısqanclıqla qarşılanması, onların iç üzünü bir daha xalqa bəyan etdi.

Lakin onlar unudurlar ki, Azərbaycanın Avropa Şurasına daxil olmasından 2 il keçməmiş belə mötəbər təşkilatda onun nümayəndələrinin yüksək vəzifə tutması Azərbaycan iqtidarının apardığı məqsədyönlü siyasətin nəticəsidir.

Son dövrdə Ermənistanla bağlı baş verən hadisələr göstərir ki, beynəlxalq aləmdə gedən proseslər onların xeyrinə işləmir. Hətta güclü erməni lobbisinin də onları müdafiə etmək və saxlamaq imkanları tükənir. Get-gedə başqa ölkələrdən asılı vəziyyətə düşən bu ölkədən əhali baş götürüb xaricə qaçır, transmilli layihələrdən kənarda qalan respublika Qafqazda təklənir. Azərbaycanın iqtisadiyyatı, ordusu və beynəlxalq nüfuzu isə getdikcə yüksəlib güclənməkdədir. Əlbəttə, münaqişənin həllinin yubanması vəziyyəti gərginləşdirir, inkişaf surətini əngəlləyir. Lakin münaqişənin sülh yolu ilə çözülməsi imkanları bitmədiyindən dövlət digər vasitələrə əl atılmasına tələsmir. Yurdsuz qalmış insanların həyat şəraitinin yaxşılaşdırılması üçün ardıcıl tədbirlər görülür.

Azərbaycan xalqı, o cümlədən bir milyondan çox qaçqın və məcburi köçkünlər bütün digər sahələrdə olduğu kimi, Qarabağ məsələsində də Heydər Əliyevi alternativsiz güc kimi tanıyır və qəbul edir. Dövlət başçımıza olan bu ümumxalq etimadı onun indiyə qədər qazandığı bütün uğurların əsas səbəbidir və görünür, elə buna görə də ötən seçkilərin hamısında sadə vətəndaşlar tərəddüd etmədən seçimələrini cənab Heydər Əliyevə ünvanlamışlar.

Qarşıdan növbəti prezident seçkiləri gəlir və artıq Azərbaycanda nəzərə çarpan ümumi əhval- ruhiyyə 5 il öncəki seçimin dəyişilməz qalacağını söyləməyə imkan verir. Çünki Azərbaycan xalqı, o cümlədən bir milyondan çox qaçqın və məcburi köçkünlər bütün problemlərinin, ən başlıcası Qarabağ münaqişəsinin həllini bu gün yalnız bir ünvandan gözləyir- Heydər Əliyevdən. Bu, Prezidentin siyasi və tarixi məsuliyyətini artıran başlıca amillərdən biridir.

Azərbaycan müxalifəti ölkədə atılmış müsbət, radikal addımlara, siyasi sabitliyə daim qısqanclıqla yanaşıb, bu gün də o cür yanaşır.

Buna baxmayaraq, həmişə olduğu kimi ölkəmizdə olan bir milyondan çox qaçqın və məcburi köçkün soydaşlarımız 2003-cü il prezident seçkilərində də cənab Heydər Əliyevə səs verəcəklərini bəyan edir və cənab İlham Əliyevi möhtərəm cənab Heydər Əliyevin davamçısı görürlər.





**AĞABƏY ƏSGƏROV,**
Azərbaycan Respublikası
Milli Məclisinin deputatı

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MİLLİ İNKİŞAFI

### Giriş

Azərbaycanın milli inkişafı Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab Heydər Əliyevin adı ilə bağlıdır. XX-XXI yüzilliklərdə Azərbaycanın bütün sahələrdə inkişafı məhz Azərbaycanın ümummilli lideri, tarixi şəxsiyyəti, dahi siyasət və dövlət xadimi Heydər Əliyevin Azərbaycana siyasi rəhbərliyi sayəsində mümkün olmuşdur. Azərbaycan tarixinin geniş anlamda dirçəliş, tərəqqi, inkişaf epoxası - Heydər Əliyev epoxası 1969-cu il iyulun 14-dən etibarən başlayır.

### I. 1969-1982: Müstəqil Azərbaycan dövlətinə doğru aparan milli inkişaf yolu.

1969-cu il iyulun 14-də cənab Heydər Əliyev Azərbaycanın siyasi rəhbərliyinə seçildi. Azərbaycan xalqı Heydər Əliyevin şəxsiyyətində öz milli liderini, böyük vətəndaşını, tarixi şəxsiyyətini, qurucusunu, dahi siyasətçisini və dövlət xadimini tanıdı.

Heydər Əliyev Azərbaycanı idarə etməyə başlayanda müdrik uzaqgörənliklə başa düşürdü ki, mahiyyətcə gələcəyə yönəlmiş inkişaf strategiyasında əsas vasitə iqtisadiyyatın tezliklə dirçəldilməsidir. Bu istiqamətdə görülən işlər nəticəsində ümumi sənaye məhsul istehsalının həcmi 1980-ci ildə 1970-ci ilə nisbətən 2,9 dəfəyə qədər artdı. Məsələn, maşınqayırma kompleksində 1980-ci illərdə istehsalın həcmi 5,3 dəfə, kimya və neft-kimya sənayesində 3 dəfədən çox, yeyinti sənayesində 4 dəfədən çox artmışdı. Belə ki, sənayenin quruluşunda maşınqayırma kompleksinin xüsusi çəkisi 1960-cı ildəki 5,1 faizdən 1982-ci ildə 16,4 faizə, kimya və neft-kimya, meşə sənayesi kompleksi müvafiq qaydada 4,1 faizdən 8,7 faizə, tikinti materialları sənaye kompleksi 2,7-dən 3,2 faizə, yeyinti sənaye kompleksi 15,3-dən 31,3 faizə qalxdı. Azərbaycanda müasir texnologiyaya əsaslanan neft emalı üzrə yeni güclü qurumların yaradılması nəticəsində Azərbaycan neft sənayesi və neft emalı daha da inkişaf etdi. Məhz, o illərdə Xəzər dənizi hesabına Azərbaycanın neft sənayesinin gələcək inkişafını nəzərə alaraq, daha bir mühüm tədbir həyata keçirildi: Bakıda nəhəng Dərin Dəniz Özülləri zavodu tikildi. Ümumiyyətlə, 1969-1982-ci illərdə respublikada irili-xırdalı 313 yeni sənaye mü-